**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASINDA AQRAR İXRACIN STİMULLAŞDIRILMASININ İQTİSADİ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

İxtisas: **5312.01 – Sahə iqtisadiyyatı**
Elm sahəsi: **İqtisad elmləri**
İddiaçı: **Nicad Adil oğlu Nərimanov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**GƏNCƏ – 2021**

Dissertasiya işi Azərbaycan Dövlət Aqrar Universitetində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Məhərrəm Cəlal oğlu Hüseynov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Gəncəli Əziz oğlu Gənciyev**

iqtisad üzrə fəlsəfə doktoru,dosent
**Zakir Talıb oğlu Əhmədov**

iqtisad üzrə fəlsəfə doktoru,dosent
**Vəfa Qənbər qızı Məmmədova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, i.e.d., professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Pərvin Elman qızı Muxtarova**

Elmi seminarın sədri: iqtisad elmləri doktoru, professor
**İslam Hacı oğlu İbrahimov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi:** Qloballaşma şəraitində ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində mühüm rolu olan aqrar sahə müəssisələrinin xarici iqtisadi əlaqələrlə bağlı fəaliyyəti nəzəri və təcrübəvi baxımdan xüsusi aktullığı ilə özünü göstərir. Dünya təsərrüfat sisteminə inteqrasiyanın genişlənməsi məsələyə spedifik yanaşma tələb edir. Bu mənada ölkənin iqtisadi cəhətdən müstəqil bir dövlət kimi formalaşması və ümumdünya təsərrüfatçılıq sistemində tam hüquqlu üzv kimi tanınması və qəbul edilməsi xarici iqtisadi fəaliyyətlə bilavasitə bağlıdır. Qeyd edilən istiqamətlərdə səmərəli nəticələr əldə olunmasının sürətləndirilməsi yalnız iqtisadiyyatın müxtəlif sferalarının, o cümlədən aqrar sahənin malik olduğu istehsal strukturlarının ixrac-idxal fəaliyyətinə dövlətinin hərtərəfli dəstəyi ilə mümkündür. Bu, həm yaxın qonşu dövlətlər çərçivəsində qarşılıqlı əlaqələrin inkişafı, həm də digər dünya dövlətləri arasında inteqrasiya prosesinin daha da inkişaf etdirilməsi baxımından zəruridir. Təbii ki, iqtisadi münasibətlərin beynəlxalq müstəvidə inkişafı proseslərin xarici dünyaya yönəldilməsindən və beynəlxalq bazarlarda rəqabət qabiliyyətinin formalaşmasından əhəmiyyətli dərəcədə asılıdır. Qeyd etmək lazımdır ki, ötən illər ərzində respublikamız iqtisadi əməkdaşlığın müxtəlif sahələrində aparıcı xarici inteqrasiya qurumları ilə səmərəli əlaqələrin qurulması istiqamətində əhəmiyyətli addımlar atmışdır və bu prosesin dərinləşməsi məqsədilə zəruri tədbirlər davam etməkdədir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə təsdiq edilmiş 23 fevral 2017-ci il “Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı”, “Azərbaycan Respublikası regionlarının 2019-2023-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”, “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası, “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”, “Azərbaycan Respublikasında xarici ticarətin liberallaşdırılması haqqında” fərman, “Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları”, “Azərbaycan Respublikasında idxal-ixrac əmə-

liyyatlarının tənzimlənməsi qaydalarının təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman bu sahədə müsbət nəticələr əldə edilməsinə zəmin yaratmaqdadır. Qeyd edilən məsələlər ölkə prezidenti cənab İlham Əliyevin də daim diqqətindədir. Bir sıra çıxışlarında o, qeyri-neft sektorunda idxalın ixracla əvəzlənməsinə xüsusi yer verməklə "*tələbatı daxili istehsal hesabına ödəməyi və ixrac potensialını artırmağı*" əsas hədəf olaraq müəyyən etmişdir.

Uzun müddətdən sonra, işğal olunmuş torpaqlarımız ölkə Prezidenti İlham Əliyevin cəsarəti və qəhrəman ordumuzun rəşadəti hesabına azad edilməsi də bu sahədə yeni perspektivlər açır. İşğaldan azad olunmuş ərazilərin istehsal potensialını nəzərə alaraq deyə bilərik ki, bu ərazilərdə torpaqların yenidən kənd təsərrüfatı istehsalına cəlb edilməsi hesabına respublikamızın aqrar sahə məhsullarına olan tələbatının daha dolğun şəkildə ödənilməsinə və istehsal olunan məhsulların xarici bazarlara ixracına yeni imkanlar yaradır.

Qeyd edilənləri nəzərə alsaq, xarici ticarət dövriyyəsinin artımının optimallaşdırılması və sürətləndirilməsi, ölkənin beynəlxalq əmək bölgüsü sistemində daha səmərəli şəkildə iştirak etməsi üçün mümkün olan maksimal imkanların təmin edilməsi, beləliklə xarici iqtisadi fəaliyyətin effektivliyinə nail olunması qarşıda duran əsas vəzifələrdəndir. Bu baxımdan xarici ticarət əlaqələrinin inkişafında başlıca tendensiyalar beynəlxalq iqtisadi əməkdaşlığın əhatə dairəsinin genişləndirilməsi, dünya təsərrüfatçılıq sisteminə inteqrasiyanın sürətləndirilməsi, dünya bazarlarında ölkənin etibarlı tərəfdaş kimi etimadının gücləndirilməsi, ixracın coğrafi quruluşunun inkişafı, ixrac məhsullarının keyfiyyətinin və rəqabətə davamlığının təmin edilməsi ilə müşayət olunmalıdır.

Məlumdur ki, qloballaşma meyllərinin güclənməsi təkcə iqtisadiyyata deyil, həm də sosial sahəyə, ekologiyaya və s. təsir göstərir və ona görə bu vəziyyət, dünya iqtisadiyyatının inkişafında sosial, mədəni və siyasi baxımdan yeni bir mərhələnin formalaşmasını şərtləndirir. Deməli, daim dəyişən beynəlxalq iqtisadi arenada dövlətlərin mövqeləri yalnız milli iqtisadiyyatlar səviyyəsində deyil, eyni zamanda milli maraqların və prioritetlərin düzgün şəkildə müəyyənləşdirilməsinə, digər ölkələrlə əlaqələrin intensivliyinə və müxtəlifli-

yinə, qloballaşan iqtisadiyyatda baş verən proseslərin nəzərə alınması qabiliyyətinə əsaslanır.

Beləliklə, iqtisadiyyatın müxtəlif sferalarında ixrac yönümlü istehsalın stimullaşdırılması və istehsal strukturlarının xarici bazarlara çıxış potensialının genişləndirilməsi, qlobal rəqabət mühitində məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi tədbirlərinin reallaşdırılması elmi və təcrübəvi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Beynəlxalq iqtisadi münasibətlərin genişləndiyi və xarici bazarlara çıxış potensialının artması şəraitində ixrac yönümlü aqrar sahə məhsullarının stimullaşdırılması və rəqabət qabiliyyətinin yüksəldilməsi üzrə mövcud problemlərin tədqiqi ölkəmizin və xarici ölkə alimlərinin diqqət yetirdikləri mühüm problemlər sırasındadır. Respublikamızın iqtisadçı alimlərindən Z.Ə.Səmədzadə, A.K.Ələsgərov, A.Ş.Şəkərəliyev, Ş.H.Hacıyev, İ.H.İbrahimov, E.A.Quliyev, İ.H.Aliyev, İ.Ş.Qarayev, S.V.Salahov, M.C.Hüseynov, G.Ə.Gənciyev, Ə.H.Ələkbərov, B.X.Ataşov, İ.Ə.Kərimov, Ə.Ç.Verdiyev, H.A.Xəlilov, A.F.Abbasov və başqaları aqrar sahədə ixrac istiqamətli istehsalın formalaşdırılması və bu sahədə stimullaşdırma problemlərinin araşdırılması ilə bağlı elmi-tədqiqat işləri aparmışlar. Xarici ölkə alimlərindən isə M.Porter, M.Canıtez, Bayraktutan Y, Sidorenko V., Korovkin V., Smitinenko B., Semenov K., Menşikov S.M. və başqaları ixrac məhsulları istehsalının stimullaşdırılması istiqamətində dəyərli elmi-tədqiqat əsərlərinin müəllifləridir.

Lakin beynəlxalq inteqrasiya və qloballaşmanın təzahürlərinin iqtisadi proseslərə nüfuz etdiyi şəratdə aqrar sahə məhsullarının ixracının stimullaşdırılması ilə bağlı kompleks araşdırmalara rast gəlinmir. Bütün bunlar aqrar sahədə ixracın stimullaşdırılmasının iqtisadi mexanizminin təkmilləşdirilməsi probleminə həsr edilmiş tədqiqat işinin yerinə yetirilməsi zəruriliyini şərtləndirmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Aqrar sferada fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələri, daxili və xarici kənd təsərrüfatı məhsulları bazarları tədqiqatın obyektini təşkil edir. Tədqiqatın predmeti aqrar sahədə ixracın stimullaşdırılmasının iqtisadi mexanizminin təkmilləşdirilməsi problemləridir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin yazılmasında başlıca məqsəd tədqiqatlar əsasında aqrar sahədə ixracın sti-

mullaşdırılmasının iqtisadi mexanizminin təkmilləşdirilməsinə dair elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələr işləyib hazırlamaqdan ibarətdir. Qarşıya qoyulan məqsədlərə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- xarici ticarət nəzəriyyələrində ixracın stimullaşdırılması ilə bağlı elmi-nəzəri fikirlərin araşdırılması əsasında ümumiləşdirmələrin aparılması;
- aqrar sahədə ixracın iqtisadi mexanizminin formalaşdırlması ilə bağlı nəzəri baxışların yerli şəraitlə uyğunluğunun müəyyənləşdirilməsi;
- aqrar sahədə istehsalın mövcud səviyyəsinin təhlil edilməsi;
- aqrar sahədə ixracın dinamikasının təhlili və ona təsir edən amillərin qiymətləndirilməsi;
- ölkənin kənd təsərrüfatı məhsullarına tələbatının ödənilmə səviyyəsinin tədqiqi;
- kənd təsərrüfatı məhsulları üzrə ixracın stimullaşdırılması vəziyyətinin araşdırılması;
- aqrar sahə məhsullarının ixracının stimullaşdırılmasına dövlət dəstəyinin əsas istiqamətlərinin müəyyən edilməsi;
- rəqabət qabiliyyətli istehsalın stimullaşdırılmasının ixraca təsirinin müəyyən edilməsi;
- ixracın yönümlü istehsalın stimullaşdırılmasının iqtisadi mexanizminin təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsi.

**Tədqiqat metodları:** Tədqiqat işinin yerinə yetirilməsi zamanı müqayisə, müşahidə, sistemli təhlil, müqayisəli təhlil metodlarından, induksiya və deduksiya metodlarından, iqtisadi təhlilin digər üsul və vasitələrindən istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:** Müdafiəyə təqdim olunan əsas müddəalar aşağıdakılarla xarakterizə olunur:

- xarici ticarət nəzəriyyələrində ixracın stimullaşdırılmasına elmi-nəzəri baxışların və aqrar sahədə ixracın iqtisadi mexanizminin formalaşdırılması məsələlərinin ümumiləşdirilməsi;
- aqrar sahədə innovasiyaların tətbiqinin ixrac yönümlü istehsala təsinin müəyyən edilməsi;
- aqrar sahədə məhsul istehsalının mövcud səviyyəsi və istehsal həcminin artması ilə ixrac imkanları arasında olan əlaqənin tədqiqi;

- ölkənin kənd təsərrüfatı məhsullarına tələbatının ödənilməsi və idxaldan asılılığın qiymətləndirilməsi;
- aqrar sahə məhsullarının ixracının ümumi ixracın strukturunda xüsusi çəkisinin və ixrac kvotasının hesablanması əsasında ölkənin beynəlxalq əmək bölgüsündə iştirakına təsir edən amillərin müəyyənləşdirilməsi;
- ixracın yönümlü istehsalın stimullaşdırılmasının iqtisadi mexanizminin - qiymət, gömrük və kredit sistemlərinin təkmilləşdirilməsi istiqamətlərinin araşdırılması;
- ixracın stimullaşdırlmasında beynəlxalq təcrübə və ondan istifadə imkanlarının müəyyən edilməsi.

**Tədqiqatın elmi yeniliyi:** Aqrar sahədə ixracın stimullaşdırılmasının iqtisadi mexanizminin təkmilləşdirilməsi problemlərinin tədqiqi əsasında aşağıdakı elmi yeniliklər əldə edilmişdir:

- ixracın stimullaşdırılmasının və iqtisadi mexanizminin formalaşdırlmasının elmi əsaslarının işlənilməsində hər bir ölkənin iqtisadi inkişaf səviyyəsinin nəzərə alınmasının zəruriliyi əsaslandırılmışdır;
- rəqabət şəraitində aqrar sahədə ixraca və onun stimullaşdırılmasına daxili və xarici amillərin təsir səviyyəsi müəyyənləşdirilmişdir;
- ölkənin kənd təsərrüfatı məhsullarına tələbatının ödənilmə səviyyəsi ilə ixracın stimullaşdırılması tədbirləri arasındakı əlaqə müəyyən edilmiş, bu asılılığın nəzərə alınmasının zəruriliyi əsaslandırılmışdır;
- kənd təsərrüfatı məhsulları istehsalçıların xarici bazarlarda mövqeyinin möhkəmləndirilməsinə xidmət edən ixracının şaxələndirilməsi və stimullaşdırılmasına dövlət dəstəyinin əsas istiqamətləri - ixrac kreditləri, ixrac subsidiyaları, ixrac sığortası, ixracın təşviqi və s. müəyyən edilmişdir;
- idxalın ixracla əvəzlənməsini nəzərdə tutan rəqabət qabiliyyətli istehsalın stimullaşdırılmasınının ixraca təsiri müəyyən edilmişdir;
- xarici bazarların tələbləri nəzərə alınmaqla aqrar sahə məhsullarının ixracının tənzimlənməsi və ixracın artırılması perspektivləri müəyyənləşdirilmişdir;

- ixracın yönümlü istehsalın stimullaşdırılmasında qiymət, gömrük və kredit mexanizminin təkmilləşdirilməsi istiqamətləri müəyyən edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti:** Tədqiqatla bağlı ümumiləşdirilmiş elmi-nəzəri müddəalar kənd təsərrüfatında ixrac yönümlü məhsulların stimullaşdırılması və rəqabət qabiliyyətinin yüksəldilməsi ilə bağlı tədbirlərin əsaslandırılmasında mühüm əhəmiyyət kəsb edə bilər.

Aqrar sahə məhsullarının ixracının stimullaşdırılmasına və stimullaşdırmanın iqtisadi mexanizminin təkmilləşdirilməsinə dair müəyyənləşdirilmiş elmi cəhətdən əsaslı tövsiyə və təkliflərin istehsalatda tətbiqi aqrar sfera subyektlərinin fəaliyyətinin və xarici ticarət əlaqələrinin səmərəliliyinin yüksəldilməsində mühüm rol oynaya bilər.

**Dissertasiya işinin nəticələrinin aprobasiyası və tətbiqi:** Dissertasiyanın əsas müddəaları, o cümlədən aqrar ixracın stimullaşdırılması mexanizminin təkmilləşdirilməsi ilə bağlı məsələlər beynəlxalq və respublika səviyyəli elmi-praktik konfranslarda məruzə edilmiş, elmi məqalə və tezis formasında çap edilmişdir. Tədqiqat nəticəsində irəli sürülən təkliflər Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Şəmkir Dövlət Aqrar İnkişaf Mərkəzi tərəfindən (Arayış № 5, 08 iyun 2021-ci il) bəyənilmiş və istifadə üçün qəbul edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Dissertasiya işi Azərbaycan Dövlət Aqrar Universitetində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi:** Dissertasiya işi giriş, 3 fəsil, nəticə, ədəbiyyat siyahısı və 226936 işarədən ibarətdir. Giriş 7 səhifə olub 11041 işarədən, I fəsil 38 səhifə 70054 işarədən, II fəsil 48 səhifə 78045 işarədən, III fəsil 37 səhifə 67858 işarədən, nəticə 5 səhifə 7739 işarədən, istifadə edilmiş 117 sayda ədəbiyyat siyahısı 10 səhifə olub 14996 işarədən ibarətdir. Dissertasiyanın ümumi həcmi 145 səhifə kompüter yazısından ibarətdir.

Tədqiqat işində 1 sxem, 3 qarafik, 14 cədvəl və 2 diaqram verilmişdir.

## TƏDQİQAT İŞİNİN QISA MƏZMUNU

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallığı, problemin öyrənilməsi vəziyyəti, tədqiqatın məqsəd və vəzifələri, obyekti, predmeti, elmi yeniliyi, təcrübi əhəmiyyəti və s. şərh olunmuşdur.

Dissertasiya işinin **"Aqrar sahədə ixracın stimullaşdırılmasının nəzəri-metodoloji məsələləri"** adlanan 1-ci fəslində xarici ticarət nəzəriyyələrində ixracın stimullaşdırılmasına elmi-nəzəri baxışlar, aqrar ixracın stimullaşdırılmasının iqtisadi mexanizminin formalaşdırlması və ixracın stimullaşdırlmasında innovativ texnologiyalardan istifadənin əhəmiyyəti məsələləri şərh edilir.

Müasir dövrdə qloballaşmanın dərinləşməsi ölkələrin milli bazarlarının dünya bazarına inteqrasiya prosesinin sürətlənməsinə güclü təsir göstərir. Bu isə ölkələr arasında iqtisadi asılılığın artmasına, iqtisadi münasibətlərin daha da genişlənməsinə səbəb olur. Bunlar öz növbəsində ölkələrin istehsal qurluşunu, istehsalın xarakterini və s. formalaşdırır.

Milli iqtisadiyyatın qlobballaşması istehsal vasitələrindən beynəlxalq məkanda istifadə olunduğu şəraitdə beynəlxalq məhsuldar qüvvələrin istehsal amillərinin yaradılması və istifadəsi kimi başa düşülməlidir. Dünya miqyasında yayılma ayrı-ayrı şirkətlər tərəfindən başqa dövlətlərdə sahibkarlıq obyektlərinin yaradılmasında və müxtəlif milli təsərrüfatlar arasında istehsal əlaqələrinin dövlətlərüstü formalarının inkişafında təzahür olunur. Bu halda dünya təsərrüfat sistemində qarşılıqlı əlaqələr daimi və çoxtərəfli xarakter alır. Bu daimi və çoxtərfli xarakter alan qarşılıqlı əlaqələr xarici ticarətin genişlənməsini şərtləndirir.

Beynəlxalq ticarət beynəlxalq iqtisadi münasibətlərin ən qədim formalarından biri hesab edilir. İnsanlarında sayında, onların ehtiyaclarında artımın olması, istehsal texnologiyalarında, informasiya və telekommunikasiya sahələrində baş verən dinamik dəyişikliklər dünya ticarətinin də böyməsinə, ölkələr arasında olan iqtisadi əlaqələrin ayrı-ayrı sahələr üzrə daha da dərinləşməsinə səbəb olmuşdur. Qeyd edək ki, müasir dövrdə beynəlxalq ticarətdə əmtəə axınları ilə yanaşı xidmətlər hərəkəti də önəmli əhəmiyyət daşıyır. Baxmayaraq ki, beynəlxalq ticarətin əsas hissəsi əmtələrin hərəkətinin payına düşür, la-

kin son dövrlərdə texnoloji sahədə baş verən ağılasığmaz dəyişikliklər xidmətlər sektorunun da xarici ticarətdə ki, mövqeyinin güclənməsinə təkan vermişdir.

Davamlı və dayanıqlı iqtisadi inkişafın təmin olunması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, ölkə gəlirlərinin, valyuta ehtiyatlarının artırılması təbii resursların varlığı ilə yanaşı dövlətin xarici ticarətinin səmərəliliyindən də bir başa asılıdır. Xarici ticarətin səmərəliliyinin təmin edilməsi isə idxalın və ixracın ölkə maraqları baxımından düzgün formada tənzimlənməsindən keçir.

İqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq bütün dövlətlər ölkə əhalisinin, sahibkarlarının və öz mənafeləri baxımından xarici siyasətdə tənzimləmə tədbirləri həyata keçirirlər. Ölkələrin iqtisadi inkişaf səviyyələrində olan fərqlilik isə bu tənzimləmə tədbirlərinin forma və metodlarında da fərqli yanaşmaların olmasını zəruri edir. İdxalın milli iqtisadiyyata vura biləcəyi zərəri nəzərə alaraq ölkələr onun tənzimlənməsinə daha ciddi yanaşırlar. Liberal ticarətin dəstəklənməsi xarici ticarət nəzəriyyələri tərəfindən nə qədər önə çəkilsə də təcrübədə əmtəə və xidmətlərin beynəlxalq ticarətində tənzimləmə tədbirlərindən kənarda heç nəyi təsəvvür etmək mümkün deyildir.

Dövlət xarici ticarətə müdaxiləsi birbaşa və dolayı formada olur. Birbaşa tənzimləmə gömrük vergiləri və gömrük tarifləri vasitəsilə həyata keçirilir. Başqa məqsədlər üçün nəzərdə tutulan, lakin idxal və ixraca təsir göstərən iqtisadi tənzimləmə tədibrlərini isə dolayı müdaxilə forması kimi qeyd edə bilərik. Məsələn, infilyasiya və işsizliyin qarşısının alınması üçün görülən tədbirlər idxal və ixraca təsir göstərmək qabiliyyətinə malikdir.

Xarici ticarətin tənzimlənməsi əsasən idxalın tənzimlənməsi şəklində başa düşülür. Çünki idxalın tənzimlənməsi daxili bazarın tənzimlənməsinin, yerli sahibkarlıq təbəqəsinin və dövlətin iqtisadi maraqlarının müdafiyəsi baxımından daha həməiyyətli hesab edilir. Araşdırmalar göstərir ki, sahibkarlıq fəaliyyətini həyata keçirən subyektlər bəzən xarici bazarı tədqiq etməkdə, xarci bazarlara çıxmaqda müəyyən çətinlikliklər çəkirlər. Belə hallarda dolayı ixracın həyata keçirilməsi zərurəti yaranır. İxrac prosesini həyata keçirən müəssisələr bəzən fərqinə varmadan dolayı ixrac prosesinin iştirakçıları olurlar.

Məlumdur ki, aqrar sahə ölkə iqtisadiyyatının aparıcı sahələrindən hesab olunur. Bu sahənin inkişaf etdirilməsi sənayenin xammalla təchizatı, əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi və məşğulluğunun yüksəldilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Başqa cür desək, aqrar sahənin inkişaf etdirilməsi həm ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində, həm də ölkə vətəndaşlarının sağlamlığını qoruyaraq sağlam cəmiyyətin formalaşmasında xüsusi rola malikdir. Onu da nəzərə almalıyıq ki, ölkəmizdə iqtisadi fəal əhalisinin böyük hissəsi aqrar sahədə çalışır. Lakin bu gün aqrar sahə məhsullarının ixrac səviyyəsi o qədər də yüksək deyildir. Aqrar sahə məhsullarının ixracının həcminin artırılması, ölkədə ixracın diversifikasiyası hesabına səmərəli ixrac sturukturunun formalaşdırılmasından asılıdır. İxrac istiqamətli sahibkarlıq subyektlərinin dəstəklənməsi, mövcud ixracatçılara müəyyən yardımların göstərilməsi dövlətin xarici ticarət siyasətinin əsas tərkib hissədir. Bu baxımdan aqrar sahə məhsullarının ixracının həcminin artırılması onun iqtisadi mexanizminin düzgün formalaşdırılmasından birbaşa asılıdır.

Araşdırmalar göstərir ki, digər amillərlə yanaşı ixrac imkanları və ixrac potensialının reallaşdırılması ilə bilavasitə bağlıdır. Bu baxımdan inkişaf etməkdə olan ölkələrdə daim innovasiya fəaliyyətinin genişləndirilməsinə və şirkətlərin innovasiyalardan istifadə imkanlarının arıtılrmasına xüsusi diqqət yetirirlər. Ticarət əlaqələrinin genişlənməsi fonunda mikro səviyyədə müəssilər arasında və makro səviyyədə ölkələr arasında formalaşan rəqabətin gedərək daha da güclənməsi istehsalçıları məhsullarda və istehsalda fərqlilik yarada biləcəyi fəaliyyətə doğru istiqamətləndirməkdədir.

Müasir dövrdə şirkətlərin rəqibləri ilə rəqabət aparmaq imkanlarına ən çox təsir göstərən amillərin başında innovasiya fəaliyyəti dayanır. Müasir dövrdə qloballaşmanın dərinləşməsi rəqabətin kəskinləşməsinə səbəb olmuşdur. Bu baxımdan innovasiya ilə bağlı siyasətin həyata keçirilməsi ölkənin dayanıqlı iqtisadi inkişafına müsbət təsir etməklə yanaşı, qeyri-neft məhsullarının ixracının artmasına və xarici bazarlarda rəqabət qabiliyyətinin yüksəlməsinə gətirib çıxara bilər. Ölkənin dünya məhsul və xidmətlər ixracatındakı iştirak payı nə qədər yüksək olarsa və ixracın strukturunda innovasiyalı məhsullar üstünlük təşkil edərsə, həmin ölkənin iqtisadiyyatı

bir o qədər səmərəli hesab oluna bilər. Ümumiyyətlə, hər bir ölkənin ixracında baş verən müsbət dəyişiklilər məhsullarını beynəlxalq bazarda təklif edən istehsal subyektlərinin ixrac potensialından asılıdır. Deməli, ixrac potensialının yüksəlməsi yalnız müəyyən bir məhsul növünün xarici bazarlarda satış həcminin artımına söykənmir, eyni zamanda yaxın gələcəkdə digər ölkələrin bazarlarına çıxmaq imkanı ilə də özünü göstərir. Bu isə ixracla bağlı tədbirlərin müəyyənləşdirilməsində hər bir sahənin həm mövcud, həm də perspektiv istehsal və ixrac potensialının qiymətləndirilməsini tələb edir.

Dissertasiya işinin **"Aqrar sahə məhsulları istehsalının və ixracının mövcud vəziyyətinin təhlili"** adlanan 2-ci fəslində aqrar sahədə məhsul istehsalının dinamikası, ölkənin kənd təsərrüfatı məhsullarına tələbatının ödənilmə səviyyəsi, aqrar sahədə ixracın dinamikası və ona təsir edən amillər təhlil edilir.

Müasir dövrdə ölkə iqtisadiyyatının qarşısında duran əsas məsələlərdən biri iqtisadiyyatın neftdən asılılığının aradan qaldırılması, tarazlı sosial- iqtisadi inkişafa nail olunması baxımından diversifikasiyalı inikişafın stimullaşdırılmasıdır. Bu baxımdan milli iqtisadiyyatın ən böyük sahələrindən olan aqrar sahə mühüm əhəmiyyət kəsb edir.

Aqrar sahə ölkə iqtisadiyyatının ən aparıcı sahələrindən biri hesab olunur. Bu sahə ölkə əhalisinin ərzaq məhsullarına, sənayenin xammala olan tələbatının ödənilməsində xüsusi rol oynayır. Həmçinin aqrar sahə məşğulluğun təmin olunmasında və əhalinin gəlirlərinin formalaşmasında da iştirak edir. Aqrar sahənin ÜDM-da xüsusi çəkisi o qədər də böyük olmasa da artan dinamikaya sahib olması müsbət meyl hesab edilir. ÜDM-in sturukturuna diqqət yetirdikdə kənd təsərrüfatının xüsusi çəkisinin 5-6 faiz arasında olduğunu görmək olar. Dünyada gedən qlobal iqtisadi proseslərin fonunda neftin qiymətinin kəskin enməsi nəticəsində 2014-cü ilə nisbətən 2015-ci ildə ÜDM 7,8 faiz azalmışdır. Lakin qeyd etmək lazımdır ki, həmin dövrdə kənd təsərrüfatının ÜDM-də 7 faiz miqdarında artımı qeydə alınmışdır. 2018-ci illə müqayisədə 2019-cu ildə isə cəmi ümumi daxili məhsul 1,9 faiz artdığı halda kənd təsərrüfatının ümumi daxili məhsulu 11,8 faiz artmışdır. Bu bir daha kənd təsərrüfatının qeyri-neft sektorunun əsası olmasını, həmçinin diversifikasiyalı inkişafın

bu istiqamətdə həyata keçirilməsinin zəruriliyini əsaslandırır. 2018-ci illə müqayisədə 2019-cu ildə ÜDM-də sənayenin xüsusi çəkisi 44,5 faizdən 41,4 faizə enmişdir. ÜDM-in artmasının səbəblərinin başında son iki ildə dünya bazarında xam neftin qiymətinə olan artım dayanır. ÜDM-in artmasına baxmayaraq müqayisə olunan ildə sənayedən sonra ən böyük paya sahib olan tikintinin xüsusi çəkisi 7,7 faizdən 7,3 faizə enmişdir. Buna baxmayaraq ÜDM-də kənd təsərrüfatının payı müqayisə edilən illər üzrə 5,2 faizdən 5,7 faizə yüksəlmişdir. Rəqəmlərin və qloballaşma proseslərinin fonunda baş verən iqtisadi hadisələrin təhlili göstərir ki, böhran və iqtisadi dalğalanmalar zamanı kənd təsərrüfatı daha dayanıqlı və davamlı inkişaf xarakterinə malik olur.

Aqrar sahədə istehsalın həcminin artırılması əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında və bu sahənin ixrac potensialının reallaşdırılması baxımından da önəmlidir. Kənd təsərrüfatı məhsulları istehsalının təhlili göstərir ki, son 5 ildə, konkret olaraq 2015-ci illə müqayisədə 2019-cu ildə kənd təsərrüfatının ümumi məhsul 39,1 faiz artmışdır.

**Cədvəl 1. Kənd təsərrüfatının ümumi məhsulunun dinamikası və strukturu**

| İllər | Cəmi, milyon manat | o cümlədən | | xüsusi çəkisi | |
|---|---|---|---|---|---|
| | | bitkiçilik məhsulları, milyon manat | heyvandarlıq məhsulları, milyon manat | bitkiçilik məhsulları, fazilə | heyvandarlıq məhsulları, faizlə |
| 2015 | 5635,3 | 2761,1 | 2874,2 | 49,0 | 51,0 |
| 2016 | 5632,4 | 2577,2 | 3055,2 | 45,8 | 54,2 |
| 2017 | 6580,0 | 3019,0 | 3561,0 | 45,9 | 54,1 |
| 2018 | 7010,0 | 3186,0 | 3824,0 | 45,4 | 54,6 |
| 2019 | 7836,7 | 3751,2 | 4085,5 | 47,8 | 52,2 |
| 2015-ci ilə nisbətən 2019-cu ildə faizlə | 139,1 | 135,8 | 142,1 | X | X |

Cədvəl ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [17, s.58].

Müqayisə olunan dövrdə respublikamızda bitkiçilik sahəsinin ümumi məhsulunda 35,8 faiz, heyvandarlıq sahəsinin ümumi məhsulunda isə 42,1 faiz artım qeydə alınmışdır. 2013-cü ildən başlayaraq kənd təsərrüfatının ümumi məhsulunun strukturunda heyvandarlıq bitkiçiliyi üstələməyə başlamışdır. Belə ki, 2015-ci ildə kənd təsərrüfatının ümumi məhsulunda bitkiçiliyin xüsusi çəkisi 49 faiz

olduğu halda 2016-cı ildə 45,8 faiz, 2019-cu ildə isə 47,8 faiz təşkil etmişdir [cədvəl 1].

Araşdırmalar göstərir ki, republikamızın kənd təsərrüfatı məhsullarının ixracının əsasını bitkiçilik məhsulları təşkil edir. Bu baxımdan bitkiçilik məhsullarının istehsalının həcminin artırılması ixrac potensialının yüksəldilməsi və onun reallaşdırılmasında mühüm əhəmiyyət kəsb edir. Heyvandarlıqda isə məhsul istehsalının həcminin artmasına baxmayaraq bu sahə məhsullarının ixracı hələ də qənaətbəxş səviyyədə deyildir. İstehsal edilən heyvandarlıq məhsullarının böyük əksəriyyəti daxili bazarda reallaşdırılmağa çalışılır.

Müasir dövrün qlobal problemlərindən biri ərzaq təhlükəsizliyi məsələləsidir. Ərzaq təhlükəsizliyi məsələsi həm siyasi, həm də iqtisadi məzmun kəsb edir və milli təhlüksizliyin əsas elementi sayılır. Ölkə əhalisinin mənafelərinin qorunması, sosial sabitliyin təmin edilməsi, idxaldan asılılığın azaldılması baxımından ərzaq təhlükəsizliyi mühüm əhəmiyyət daşıyır. Bu istiqamətdə son illər həyata keçirilən tədbirlər əhəmiyyətli müsbət tendensiyalara gətirib çıxarmışdır.

**Cədvəl 2. Bitkiçilik məhsulları ilə özünütəminetmə səviyyəsi, faiz**

| Məhsulların adı | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| Dənlilərin cəmi | 64,5 | 63,8 | 66,3 | 74,1 | 67,3 |
| Buğda | 54,8 | 52,9 | 58,1 | 64,8 | 57,2 |
| Arpa | 95,1 | 101,7 | 94,4 | 103,1 | 100,2 |
| Qarğıdalı | 54,1 | 71,1 | 70,7 | 82,7 | 80,0 |
| vələmir | 93,1 | 85,7 | 90,1 | 89,2 | 90,9 |
| sair növ dənlilər | 6,3 | 32,0 | 20,4 | 82,3 | 88,2 |
| Paxlalılar | 69,3 | 68,4 | 73,7 | 72,0 | 76,1 |
| Kartof | 89,1 | 85,5 | 89,2 | 90,8 | 87,8 |
| Bütün növ tərəvəz | 103,4 | 105,4 | 115,2 | 115 | 112,0 |
| Bostan məhsulları | 100,0 | 100,2 | 100,2 | 99,7 | 100,8 |
| Meyvə və giləmeyvə | 113,7 | 116,4 | 122,4 | 123,2 | 123,1 |
| Üzüm | 93,1 | 89,2 | 93,4 | 92,5 | 94,3 |

Cədvəl ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [19, s.75].

Təhlildən aydın olur ki, 2015-ci illə müqayisədə 2019-cu ildə bitkiçilik məhsulları - dənli və dənli paxlalılar üzrə özünütəminetmə səviyyəsi 64,5 faizdən 67,3 faizə, buğda üzrə özünütəminetmə səviyyəsi 54,8 faizdən 57,2 faizə, arpa üzrə 95,1 faizdən 100,2 faizə, qarğıdalı üzrə 54,1 faizdən 80 faizə, sair növ dənlilər üzrə 6,3 faizdən 88,2 faizə, paxlalılar üzrə 69,3 faizdən 76,1 faizə, bütün növ tərəvəzlər üzrə 103,4 faizdən 112 faizə bostan məhsulları üzrə 100 faizdən

100,8 faizə, meyvə və giləmeyvə üzrə 113,7 faizdən 123,1 faizə üzüm üzrə isə 93,1 faizdən 94,3 faizə yüksəlmişdir. Müqayisə olunan dövrdə vələmir üzrə özünütəminetmə səviyyəsi 93,1 faizdən 90,9 faizə, kartof üzrə 89,1 faizdən 87,8 faizə geriləmişdir[cədvəl2]. Heyvandarlıqda da özünütəminetmədə son illər müsbət nəticələr əldə edilməsi müşayət edilir. Statistik məlumatlarının təhlili göstərir ki, 2015-ci illə müqayisədə 2019-cu ildə bütün növ mal-qara və quş əti üzrə özünütəminetmə səviyyəsi 92,7 faizdən 82,5 faizə düşmüşdür. Müqayisə aparılan dövrdə mal əti və ət məhsulları ilə özünütəminetmə səviyyəsi 91,8 faizdən 86,1 faizə, qoyun əti və ət məhsulları üzrə özünütəminetmə səviyyəsi 99,3 faizdən 97,6 faizə, quş əti və ət məhsulları üzrə isə 98,6 faizdən 74,6 faizə geriləmişdir. Ət və ət məhsullarının bütün növləri üzrə özünütəminetmə səviyyəsinin aşağı düşməsinə baxmayaraq digər heyvandarlıq məhsulları üzrə özünütəminetmə səviyyəsi yüksəlmişdir. Belə ki, süd və süd məhsulları üzrə özünütəminetmə səviyyəsi üzrə 84,3 faizdən, 86,3 faizə, yumurta üzrə 99,7 faizdən 101,8 faizə, balıq və balıq məhsulları üzrə isə 77,6 faizdən 82,2 faizə qalxmışdır [cədvəl 3].

**Cədvəl 3. Heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsi, faiz**

| Məhsulların adı | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| Bütün növ mal-qara və quş əti | 94,7 | 87,9 | 84,7 | 82,7 | 82,5 |
| mal əti və ət məhsulları | 91,8 | 93,5 | 86,3 | 85,1 | 86,1 |
| qoyun (keçi) əti və ət məhsulları | 99,3 | 98,7 | 98,0 | 98,1 | 97,6 |
| quş əti və ət məhsulları | 98,6 | 79,1 | 79,7 | 75,9 | 74,6 |
| Süd və süd məhsulları | 84,3 | 87,7 | 86,1 | 86,7 | 86,3 |
| Yumurta | 99,7 | 98,8 | 100,5 | 101,5 | 101,8 |
| Balıq və balıq məhsulları | 77,6 | 82,3 | 81,2 | 83,2 | 82,2 |

Cədvəl ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [19, s.76].

Özünütəminetmə səviyyəsinin yaxşılaşdırılması idxaldan asılılığın azaldılmasının əsas iqtisadi aspektlərindən hesab edilməklə ərzaq məhsullarına olan tələbatın təmin edilməsi üçün mövcud imkanlar və ölkənin aqrar potensialının reallaşdırılması imkanları ilə şərtlənir.

İdxaldan asılılığın minimuma endirilməsi, daxili ərzaq bazarının yerli məhsullar hesabına formalaşdırılması baxımından da önəmlidir. Bunun üçün yerli istehsalçıların rəqabət qabiliyyətinin artırılması mühüm əhəmiyyət kəsb edir. Rəqabət qabiliyyətinin artırılması

həm idxaldan asılılığın azaldılması, həm də ixrac potensialının reallaşdırılması baxımından vacibdir.

Ölkənin inkişaf etdirilməsində onun ixrac potensialının reallaşdırlmasının və müqayisəli üstünlüyə malik olduğu sahələrdə ixracın artırılmasının ölkənin müsbət imicinin formalaşdırılması, xarici bazarlarda Azərbaycan məhsullarının yer alması və möhkəmlənməsi baxımından mühüm önəmi vardır. İxrac potensialı xarici bazarlarda rəqabət aparmaq üçün ucuz və keyfiyyətli başa gələn, müqayisəli üstünlüyə malik məhsulların ixrac olunmasıdır. Təbii ki, ixrac potensialı ölkənin iqtisadi potensialının bir hissəsidir və bu potensialın xarici bazarlarda reallaşdırılması zəruri məsələlərdən hesab olunur.

Aqrar sahədə ixrac potensialının formalaşdırılması, bu sahənin istehsal potensialından istifadənin genişləndirilməsi hesabına mümkündür. Kənd təsərrüfatı ölkə iqtisadiyyatının əsas sahələrindən biri hesab olunduğundan bu sahə geniş istehsal potensialına malikdir. Ölkəmizin yerləşdiyi coğrafi mövqe, malik olduğu torpaq və su resursslar, o cümlədən digər istehsal ehtiyatlarının mövcudluğu aqrar sahənin geniş istehsal potensialının olmasından xəbər verir. Lakin bu gün kənd təsərrüfatının malik olduğu potensialdan qənaətbəxş səviyyədə istehsal olunmur. Bu isə özünü kənd təsərrüfatı məhsulları ilə özünütəminetmə səviyyəsində və ixrac olunan kənd təsərrüfatı məhsullarının həcmində göstərir. Aqrar sahə məhsullarının ixracının artırılması kənd təsərrüfatı istehsalının effektivliyinin artırılmasından birbaşa asılıdır.

Araşdırmalar göstərir ki, kənd təsərrüfatının istehsal potensialı genişləndikcə, aqrar məhsullarla özünütəminetmə göstəricisi yaxşılaşır, ölkəmizə idxal olunan aqrar məhsullar yerli məhsullarla əvəz olunur, həmçinin bu sahənin ixrac potensilı da daha yaxşı reallaşdırılır. Kəndə təsərrüfatına təklifin həcminin artması ilə ixracın həcmi arasında düz asılılıq, idxalın həcmi ilə tərs aslılıq mövcuddur. Lakin idxal olunan məhsulların dünya bazaar qiymətlərində baş verən dəyişikliklər nəticəsində də idxalın həcmində artım baş verə bilər. Diaqramdan görsəndiyi kimi 2019-cu ildə kənd təsərrüfatı məhsullarının təklifi 12 faiz artdığı halda, idxalı 24,6 faiz, ixracı isə 8,8 faiz artmışdır. [diaqram 1].




**Diaqram 1. Kənd təsərrüfatı məhsullarının təklifi ilə idxal və ixrac arasında asılılıq**

Ümumiyyətlə, ixracın həcminin artırılması siyasətinin düzgün müəyyənləşdirilməsi, ixrac məhsulunun istehsalın dəyər zəncirində daha səmərəli nəticələrin əldə edilməsinə nail olunması, xammal və yarımfabrikat ixracından daha çox hazır məhsul ixracına keçilməsi hesabına təmin edilməlidir. Dəyər zəncirinin genişləndirilməsi resurslarından daha səmərəli istifadə baxımından mühüm əhəmiyyət kəsb edir. İxracın artırılması və diversifikasiyalı ixracın təmin edilməsi baxımından müxtəlif ölkələrin təcrübələrin öyrənilməsi də zəruridir. Neftdən asılılığın aradan qaldırılması və ixracda digər sahələrin payının artırılması hesabına bu məhsulun xüsusi çəkisinini aşağı salınması yalnız səmərəli və effektiv ixrac strategiyasının seçilməsi, səmərəli təşviq fəaliyyətinin həyata keçirilməsi hesabına mümükündür. İxrac fəaliyyətinin genişləndirilməsi, son nəticədə ölkədə geniş iqtisadi təhlükəsizliyin təmin edilməsində mühüm vasitə hesab edilir. Belə ki, ölkə xaricinə ixrac edilən məhsulların həcminin artırılması, həm də tədiyyə balansında müsbət saldonun yaranmasına gətirib çıxarır. Tədiyə balansında müsbət saldonun yaranması isə təbii ki, ölkəyə valyuta daxil olmasının həcminin artmasında əhəmiyyətli rol oynayır. Lakin ixracı vahid məhsuldan asılı olan ölkələrdə dünya bazarında yaranan neqativ meyllər daha çox özünü göstərir.

Son illər kənd təsərrüfatına göstərilən diqqət və qayğı, həmçinin qeyri-neft sektorunun ixracın artırılması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində aqrar sahə məhsullarının ixracı xeyli yüksəlmişdir. Belə ki, 2015-ci illə müqayisədə 2019-cu ildə natural ifadədə respublikamızdan tomat (pamidor) ixracı 2,6 dəfə, soğan

ixracı 2,9 dəfə, salat tərəvəzi ixracı 3,4 dəfə, alma ixracı təqribən 2,5 dəfə, üzüm ixracı 2,1 dəfə, albalı və gilas ixracı 2,2 dəfə, şaftalı və nektarinlərin ixracı 7,2 dəfə, ətriyyat və əczaçılıqda işlənən bitkilərin ixracı 8,2 dəfə, tütün ixracı 3,3 dəfə, həmçinin kartof ixracı 68,3 faiz, xiyar və karnişon 3,2 faiz, xurma 52,7 faiz, qabığı təmizlənmiş meşə fındığı 79,8 faiz artmışdır. Müqayisə olunan dövrdə çay ixracı isə 64,9 faiz azalmışdır [cədvəl 4].

**Cədvəl 4. Kənd təsərrüfatı məhsullarının ixracı (ton)**

| Məhsulların adı | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2015-ci ilə nisbətən 2019-cu ildə faizlə |
|---|---|---|---|---|---|---|
| Kartof | 36712 | 38229,4 | 57597,2 | 66563,4 | 61785,1 | 168,3 |
| Tomat | 65015 | 191017,2 | 153577,6 | 171921,1 | 174548,2 | 2,6 dəfə |
| Soğan | 8881,5 | 3069 | 56612,1 | 40686,8 | 26155,5 | 2,9 dəfə |
| Xiyar və kornişon | 6753,3 | 15094,6 | 11924,1 | 9810,8 | 6966,6 | 103,2 |
| Salat tərəvəzi | 1371 | 2565,9 | 3540,2 | 4025,1 | 4675,3 | 3,4 dəfə |
| Alma | 37946,3 | 66320,5 | 77489,5 | 89866,7 | 96892,0 | 2,5 dəfə |
| Xurma | 95631,3 | 94202 | 118304,5 | 150912,5 | 146092,3 | 152,7 |
| Qabığı təmizlənmiş meşə fındığı | 12245,5 | 14812,9 | 20766,4 | 18223,2 | 22023,0 | 179,8 |
| Üzüm | 2027,1 | 4120,9 | 2449,8 | 3210,2 | 4168,4 | 2,1 dəfə |
| Albalı və gilas | 11989,3 | 14993,7 | 14439 | 23320,2 | 26516,0 | 2,2 dəfə |
| Şaftalı, nektarinlər | 1107,4 | 3561,3 | 7259,2 | 9518,5 | 8032,8 | 7,2 dəfə |
| Ətriyyat və əczaçılıqda işlənən bitkilər | 2420,3 | 5315,4 | 14260,3 | 21520,6 | 19903,9 | 8,2 dəfə |
| Çay | 4287,5 | 1137,7 | 1735,0 | 1 367,0 | 1505,9 | 35,1 |
| Tütün | 1944,4 | 2217,9 | 4586,3 | 4 169,02 | 6398,1 | 3,3 dəfə |

Cədvəl ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [18, s.80-82].

Ölkəyə xarici valyuta daxilolmalarının artırılması və daxili valyuta bazarında sabitliyin təmin olunması, həmçinin kənd təsərrüfatı məhsullarının ixracının dəstəklənməsi mühüm əhəmiyyət kəsb edir. Bir sıra səbəblərdən dünya bazarında kənd təsərrüfatı məhsullarının qiymətləri yüksəlir ki, bu da kənd təsərrüfatı məhsullarının ixracından xarici valyuta daxilolmalarının artmasına şərait yaradır. Respublikamızda ixracın əmtəə strukturunun diversifikasiyasının aparılmasının zəruri olduğu qədər, ixracın coğrafi strukturununda da çoxşaxəliliyin təmin edilməsinə ciddi ehtiyac vardır. Statistik məlumatlardan aydın olur ki, idxalın coğrafi strukturu ixracın coğrafi qurluşundan daha genişdir. Bunun bir səbəbi də xarici ticarətin əmtəə strukturu ilə bağlıdır. Beynəlxalq statistikaya görə ölkələr tərəfindən 97 mal qrupunda 10 mindən artıq əmtəə üzrə xarici ticarət əlaqələri həyata keçirilir. Əmtəə diversifikasiyasının səviyyəsinin ölçülməsi istər idxalın istərsə də ixracın əmtəə strukturunun öyrənilməsi ba-

xımından mühüm əhəmiyyət kəsb edir. Bu səviyyəni müəyyən etmək üçün tədqiqatçılar Herfidahl indeksindən istifadə edirlər. Ölkədə ixracın coğrafi qurluşunun diversifikasiya səviyyəsinə isə ixracı nə qədər geniş coğrafiyaya, həm də nisbətən bərabər həcmdə yayılması təsir göstərir.

Aqrar sahə məhsullarının ixracının coğrafi strukturlarının təhlili onu deməyə əsas verir ki, respublikamızdan ixrac olunan aqrar sahə məhsullarının 90 faizə qədəri Rusiya bazarlarında realizə olunur. Azərbaycan Respublikasının xarici ticarət əlaqələrində Rusiya xüsusi önəmə malik olmaqla ilk sıralarda durur və hər il bu ölkə ilə olan ticarət dövriyyəsinin həcmi davamlı olaraq artır. Belə ki, 2015-ci ildə kartof ixracından və təzə tərəvəz ixracından daxil olan vəsaitin 100 faizə yaxını, təzə meyvənin 67 faizi, çayın 44,6 faizi, tütünün isə 18,1 faizi bu ölkənin payına düşür. 2019-cu ildə isə Rusiyaya ixrac olunan kartof cəmi kartof ixracının 93,5 faizini, təzə tərəvəz 97,5 faizini, təzə meyvə 76,9 faizini, çay 29,2 faizini, tütün isə cəmi tütün ixracının 39,7 faizini təşkil etmişdir. 2015-ci illə müqayisədə 2019-cu ildə respublikamızdan Rusiya Federasiyasına dəyər ifadəsində kartof ixracı 20,2 faiz, təzə tərəvəz ixracı 85,4 faiz, təzə meyvə ixracı 70,3 faiz, çay ixracı 0,9 faiz, tütün ixracı isə 3,7 dəfə artmışdır [cədvəl 5].

**Cədvəl 5. Rusiya Federasiyasına ixrac olunan əsas kənd təsərrüfatı məhsullarının həcmi**

| Məhsulların Adı | 2015 | | 2017 | | 2018 | | 2019 | | 2015-ci illə müqayisədə 2019-cu ildə faizlə |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Məbləği, mln ABŞ dolları | İxracda xüsusi çəkisi, faizlə | Məbləği, mln ABŞ dolları | İxracda xüsusi çəkisi, faizlə | Məbləği, mln ABŞ dolları | İxracda xüsusi çəkisi, faizlə | Məbləği, mln ABŞ dolları | İxracda xüsusi çəkisi, faizlə | |
| Kartof | 20889,3 | 99,7 | 25669,3 | 99,4 | 28864,4 | 97,4 | 25100,5 | 93,5 | 120,2 |
| Təzə tərəvəz | 112686,9 | 99,6 | 177833,9 | 96,5 | 195272,7 | 96,3 | 208873,6 | 97,5 | 185,4 |
| Təzə meyvə | 163129,8 | 67,0 | 196919,5 | 67,4 | 262024,1 | 80,5 | 277831,0 | 76,9 | 170,3 |
| Çay | 2754,3 | 44,6 | 5398,0 | 52,8 | 3592,1 | 38,3 | 2779,2 | 29,2 | 100,9 |
| Tütün | 1445,3 | 18,1 | 4073,3 | 28,6 | 3300,8 | 25,9 | 5408,0 | 39,7 | 3,7 dəfə |

Cədvəl ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [18, s.105-158-183-208].

Aqrar məhsulların ixrac coğrafiyasını təhlil etdikdə aydın olur ki, republikamızın aqrar məhsullar ixracında diversifikasiya prosesi gedir. Lakin bu proses o qədər də sürətli deyildir. Qeyd edə bilərik

ki, Almaniyaya, Türkiyə, Ukraynaya o cümlədən bir sıra Avropa və Asiya dövlətlərinə də artıq ölkəmizdən kənd təsərrüfatı məhsulları ixrac olunmaqdadır. Dünya bazarında ölkəmiz müəyyən növ kənd təsərrüfatı məhsullarının idxalçısı, həm də ixracatçısı kimi çıxış edir.

Xarici ticarət dövriyəsində kənd təsərrüfatı məhsullarının ixracda xüsusi çəkisinin artmasına da xüsusi diqqət yetirilməsi vacib olan məqamlardandır. Təhlil göstərir ki, republikamızın ümumi ixracı illər üzrə dəyişkən olmuşdur. Belə ki, 2015-ci ildə özündən əvvəlki 2014-cü ilə nisbətən respublikamızın ümumi ixracında 41,7 faizlik azalma qeydə alınsa da kənd təsərrüfatı məhsullarının ixracı 1,1 faiz artmışdır. Cəmi ixrac 2017-ci ildə isə özündən əvvəlki ilə nisbətən ümumi ixrac 2,6 faiz, 2018-ci ildə 27 faiz, 2019-cu ildə isə 0,8 faiz artmışdır. Respublikamızdan 2016-cı ilə nisbət 2017-ci ildə 35,9 faiz artıq kənd təsərrüfatı məhsulları ixrac olunmuşdur. 2018-ci ildə kənd təsərrüfatı məhsullarının ixracı özündən əvvəl ki, illə müqayisədə 12,5 faiz, 2019-cu ildə isə bu rəqəm 8,8 faiz təşkil etmişdir [qrafik].




**Qrafik. Azərbaycan Respublikası üzrə cəmi və kənd təsərrüfatı məhsullarının ixrac indeksi (özündən əvvəlki ilə nisbətən faizlə)**

Ölkənin beynəlxalq münasibətlərdə iştirak dərəcəsinin müəyyənləşdirilməsində xarici ticarətin vəziyyətinin qiymətləndirilməsi olduqca zəruri məsələlərdən hesab edilir. Ölkənin xarici ticarətdə iştirak dərəcəsi müxtəlif göstəricilər vasitəsilə aparılır ki, bunlardan biri də ixrac kvotasıdır. İxrac kvotası – iqtisadiyyatın ayrı-ayrı sahələri və ya müəssisələr üçün əmtəə və xidmətlərin ixracının əhəmiyyətini xarakterizə edən kəmiyyət göstəricisidir. İxrac kvotası- ölkənin illik ixracının ÜDM-ə ya ümumi milli məhsula olan nisbəti şəklində he-

sablanır. İxrac kvotasının yüksəlməsi ölkənin beynəlxalq əmək bölgüsündə iştirakının və rəqabət qabiliyyətinin yüksəlməsini ifadə edir.

Statistik məlumatlarının təhlilindən aydın olur ki, 2015-ci illə müqayisədə 2019-cu ildə respublikamızda cəmi ÜDM 50,2 faiz, o cümlədən qeyri-neft sektorunun ÜDM-i 30,3 faiz, kənd təsərrüfatı, meşə və balıqçılıq təsərrüfatının ÜDM-i isə 39,0 faiz artmışdır. Müqayisə olunan dövrdə cəmi ixrac 2,6 dəfə, qeyri-neft sektorunun ixracı 97,2 faiz, kənd təsərrüfatı məhsullarının ixracı isə 3,3 dəfə artmışdır. İxrac kvotasını hesabladıqdan sonra qeyd edə bilərik ki, ölkə üzrə bu göstərici 2015-ci ildə 24 faiz, 2019-cu ildə isə 16,9 bənd yüksələrək 40,9 faiz olmuşdur. Müqayisə olunan dövrdə qeyri- neft sektorunda ixrac kvotası 4,5 faizdən 7 faizə, kənd təsərrüfatında ixrac kvotası 9,7 faizdən 23,6 faizə yüksəlmişdir [cədvəl 6].

**Cədvəl 6. Ümumi daxili məhsulun, ixracın və ixrac kvotasının dianmikası**

| Göstəricilər | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2015-ci illə müqayisədə 2019-cu ildə, faizlə |
|---|---|---|---|---|---|---|
| 1. ÜDM cəmi, mln. man. | 54380,0 | 60425,2 | 70337,8 | 80092,0 | 81681,0 | 150,2 |
| O cümlədən | | | | | | |
| Qeyri-neft sektorunda | 34138,8 | 35951,1 | 40328,0 | 41.662,0 | 44481,8 | 130,3 |
| Kənd təsərrüfatı, meşə və balıqçılıq təsərrüfatında | 3359,4 | 3386,8 | 3944,1 | 4174,8 | 4669,6 | 139,0 |
| 2. İxrac, cəmi, mln. man. | 13061,3 | 21477,0 | 26367,3 | 33131,5 | 33379,8 | 2,6 dəfə |
| Qeyri-neft sektorunda | 1582,3 | 1895,0 | 2500,4 | 2739,2 | 3119,5 | 197,2 |
| Kənd təsərrüfatında | 325,5 | 606,0 | 913,7 | 1014,6 | 1103,5 | 3,4 dəfə |
| 3. Ölkə üzrə ixrac kvotası, faizlə | 24,0 | 35,5 | 37,5 | 41,4 | 40,9 | X |
| 4. Qeyri-neft sektorunda ixrac kvotası, faizlə | 4,5 | 5,3 | 6,2 | 6,6 | 7,0 | X |
| 5. Kənd təsərrüfatında ixrac kvotası, faizlə | 9,7 | 17,9 | 23,2 | 24,3 | 23,6 | X |

Cədvəl ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [17, s.55; 18, s-12]

Ölkə iqtisadiyyatının vahid məhsuldan asılılığının yüksək olması ixrac kvotası göstəricisinə də təsir göstərir. İqtisadiyyatının diversifikasiyasını təmin etmiş dövlətlərdə bu göstərici daha dayanıqlı olur və kəskin azalma demək olar ki, müşahidə edilmir. Dünya iqtisadiyyatında 2019-cu ildə bu göstərici 23,1 faiz təşkil etdiyi halda Almaniyada 46,9 faiz, Fransada 21 faiz, Yaponiyada 15, 1 faiz, ABŞ da isə 8,1 faiz olmuşdur. Qeyri-neft sektorunun inkişafı istiqamətində aparılan işlərin bir istiqamətini də burada ixracın həcminin artırılması təşkil edir. Lakin qeyri neft sektorunun ümumi daxili məhsulunun

artmasına baxmayaraq ixrac kvotası göstəricisi ona uyğun artım tempinə nail ola bilməmişdir. Bu isə qeyri-neft sektorunun daha çox yerli bazara istiqamətləndiyini deməyə əsas verir.

Dissertasiya işinin **"Aqrar sahədə ixracın stimullaşdırılması və onun iqtisadi mexanizminin təkmilləşdirilməsi istiqamətləri"** adlanan 3-cü fəslində aqrar sahə məhsullarının ixracının stimullaşdırılmasına dövlət dəstəyi tədbirləri, ixracın yönümlü istehsalın stimullaşdırılmasında qiymət, gömrük, vergi, kredit və sığorta mexanizminin təkmilləşdirilməsi istiqamətləri, ixracın stimullaşdırlmasında beynəlxalq təcrübə və ondan istifadə imkanlarının müəyyən edilməsi məsələləri öz əksini tapır.

İqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq bütün dövlətlər kənd təsərrüfatının dəstəklənməsi istiqamətində müəyyən tədbirlər həyata keçirirlər. Müasir dövrdə aqrar sahənin dövlətin daha çox diqqət mərkəzində dayanmasını şərtləndirən bir sıra amillər mövcuddur. Bu amillər sırasında aqrar sahənin ölkə iqtisadiyyatının ən böyük sahələrindən biri olması, məşğulluğun təmin edilməsində böyük paya sahib olması, iqtisadiyyatın diversifikasiyası baxımından əhəmiyyətli olması, ixracın diversifikasiyasında mühüm rol oynamasını qeyd etmək olar.

Qeyd etmək lazımdır ki, aqrar sahənin inkişafı onun rəqabət qabiliyyətindən asılıdır və rəqabət qabiliyyətinin yüksəldilməsi ilə ixrac potensialının reallaşması arasında düz asılılıq mövcuddur. Rəqabət qabiliyyətinin yüksəlməsi ixrac potensialının reallaşdırılması imkanlarının genişləməsinə, aşağı düşməsi isə bu potensialın reallaşmasının məhdudlaşmasına səbəb olur.

Aqrar sahədə ixrac yönümlü istehsala dövlət dəstəyini əsasən iki istiqamət üzrə qruplaşdırmaq olar. Bunlardan birincisi məhsul istehsalına dövlət dəstəyi, ikincisi isə aqrar məhsulların ixrac potensialının reallaşdırılması istiqamətində göstərilən dövlət dəstəyidir. Eyni zamanda qeyd etmək lazımdır ki, iqtisadi prosesləri hərəkətverici qüvvəsini onun iqtisadi mexanizmi təşkil edir. Bu proses xarici ticarətdə də keçərlidir. Yəni ixrac potensialının reallaşdırılması onun iqtisadi mexanizmininin formalaşdırılmasından birbaşa asılıdır. İxracın iqtisadi mexanizminin tədqiq edilməsi və onun müasir dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilməsi olduqca zəruri məsələlər-

dən hesab edilir. Bu mexanizmin əsasını isə dövlətin müxtəlif qurumlar vastəsilə çox çeşidli formada ixrac fəaliyyətinə göstərdiyi dövlət dəstəyi təşkil edir.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) ixrac imkanlarının təşviqi istiqamətində geniş fəaliyyət göstərir. Yerli şirkətlərin biznes əlaqələrinin daha da genişləndirilməsi və ölkə iqtisadiyyatına investisiya qoyuluşunun təşviqi məqsədi ilə 2018-ci ilin yanvar–dekabr aylarında 282 tədbir və ikitərəfli görüş keçirilmişdir ki, bunun da 228-i Azərbaycanda, 54-ü isə xaricdə olmuşdur. Biznes forumlar bu tədbirlər arasında ən iri miqyaslı olması ilə fərqlənir. 2018-ci ilin yanvar–dekabr aylarında Azərbaycanda 10, xaricdə isə 4 olmaqla ümumilikdə 14 biznes forum keçirilib. 2018-ci ildə AZPROMO tərəfindən 10 təlim seminar keçirilib. Seminarlar beynəlxalq bazarlara çıxış, ixrac olunan ərzaq mallarının sertifikatlaşdırılması, “Made in Azerbaijan” brendinin təşviqi, ixracın coğrafiyası və həcminin genişləndirilməsi və s. mövzularda təşkil olunub. “Made in Azerbaijan” brendinin təşviqi məqsədi ilə 2018-ci ilin yanvar-dekabr aylarında 11 beynəlxalq sərgidə vahid ölkə stendi qurulub. Həmçinin sərgi çərçivəsində müqavilə imzalanaraq 2 mln dollar dəyərində məhsul ixrac edilmişdir. 2018-ci ilin yanvar-dekabr aylarında Beynəlxalq sərgilərdə iştirak nəticəsində bağlanmış müqavilələrin toplam dəyəri 6540880 ABŞ dolları, 2019-cu ildə isə 11171068 ABŞ dolları olmuşur.

İqtisadiyyat Nazirliyindən sorğu əsasında ələ etdiyimiz məlumatlardan aydın olur ki, sahibkarlara dəstək müxtəlif istiqamətlərdə həyata keçirilmişdir. Belə ki, sərgilərdə fərdi qaydada iştiraka görə 2018-ci ildə 93824,44 manat maliyyə dəstəyi göstərildiyi halda 2019-cu ildə 224392,37 manat, 2020-ci ildə isə 111629,13 manat dəstək göstərilmişdir.[cədvəl 7].

**Cədvəl 7. Sərgilərdə fərdi qaydada iştiraka görə maliyyə dəstəyi**

| Tarix (il) | Müraciət sayı | Ödənilmiş dəstək məbləği sayı | Yararlanmış şirkət sayı | İştirak olunmuş sərgi sayı | Ödənilmiş dəstək məbləği (manatla) |
|---|---|---|---|---|---|
| 2018 | 20 | 20 | 16 | 18 | 93824,44 |
| 2019 | 33 | 33 | 27 | 28 | 224392,37 |
| 2020 | 14 | 13 | 13 | 9 | 111629,13 |

Məlumatlar sorğu əsasında İqtisadiyyat Nazirliyindən əldə edilmişdir.

İxracın həcminin artırılmasında təşviqlərlə yanaşı ixracın iqtisadi mexanizmində qiymət sisteminə də xüsusi önəm verilir. Dünya qiymətəri dünya bazarında formalaşan qiymətlərdir. Dünya qiymətlərinin əsasında beynəlxalq istehsal xərcləri durur. Beynəlxalq istehsal xərcləri əsas konkret əmtəə növünün yaradılmasına xərclənən istehsal amillərinin- kapital, əmək, müxtəlif növ təbii və maddi resurslar və sairin dünya üzrə orta hesabla kəmiyyətinə tərəf meyillidir. Onlar dünya bazarında əmtəənin əsas malgöndərəni olan ölkənin təsiri ilə formalaşırlar. Dünya qiymətlərinin səviyyəsinə dünya bazarında həmin əmtəəyə olan tələb və təklif əhəmiyyətli dərəcədə təsir edir. Subsidiyalaşdıma, kvotalaşdırma, lisenziyalaşdırma yolu ilə idxal və ixracı tənzimləyən dövlət dünya qiymətlərinə böyük təsir göstərmək qabiliyyətinə malikdir.

Xarici ticarət fəaliyyətinin liberallaşdırılması onun tənzimlənməsinin yeni hüquqi bazasının tez bir zamanda yaradılması və mövcud qanunvericilik bazasının beynəlxalq qanunvericiliklə uzlaşdırılması vəzifəsini təkidlə irəli sürür. Gömrük hüququ xarici iqtisadi əlaqələrin hüquqi-normativ mexanizmində xüsusi yer tutur. Çünki əmtəə və nəqliyyat vasitələrinin gömrük sərhəddindən keçməsi ilə əlaqədar yaranan münasibətlər gömrük-hüquq normaları ilə tənzimlənir. Gömrük qanunvericiliyinin qarşısında duran ən mürəkkəb məsələlərdən biri hüquqi tənzimləmədə subyektivliyin aradan qaldırılması və obyektiv özəyin möhkəmləndirilməsidir. Gömrük qanunvericiliyinin əsasına gömrük hüququnun prinsipləri qoyulmalıdır və onlar gömrük münasibətlərini tənzimləyən bütün normativ aktların özəyi olmalıdır. Gömrük qanunvericiliyi gömrük hüququnun prinsipləriylə bir birindən fərqlənməməsi üçün ilk növbədə qanunvericilik prosedurunu elə təşkil etmək lazımdır ki, o həm dövlətin həm də müxtəlif özəl sahibkarlıq dairələrinin maraqlarını maksimal dərəcədə nəzərə alsın.

Müasir şəraitdə ixracın iqtisadi mexanizminin ən vacib elementlərindən biri kreditləşmədir. Müxtəlif dövlətlər arasında itisadi əlaqələr genişləndikcə beynəlxalq bank kredit münasibətləi daha da inkişaf edir. Sərt rəqabətin təsiri altında firmalar əsas kapitalı minimal ölçülərlə məhdudlaşdırmağa və onların fəaliyyətini həyata keçirmək üçün səfərbər etdikləri vəsaitlərinin dövriyyəsini maksimal sürətləndirməyə məcburdur. Sərmayə edilən kapitalın səmərəliliyini

yüksəltmək məqsədiylə istehsal edən və xarici ticarəti həyata keçirən müəssisələr öz fəaliyyətlərinin kreditləşdirilməsindən geniş istifadə edirlər. Bu onlara satdıqları əmtəələri girov qoyulmaqla aldıqları kredit hesabına özlərinin dövriyyə kapitalını formalaşdırmağa imkan verir. İxrac kreditləri sığortası müasir dövrdə bütün dünyada istifadə olunan ixracın ən təsirli təşviq vasitələrindən biri hesab olunur. İxrac kreditlərinin sığortasından yararlanmaq sahibkarlara xarici bazarlarda müəyyən üstünlüklər qazandırır: yeni bazarlara giriş imkanlarının təmin olunması; rəqabət üstünlüyünün əldə olunması; daha uzun müddətə və elastik ödəmə formaları ilə bazar payının artırılması; kommersiya bankları ilə maliyyə imkanlarının genişəndirilməsi və s.

İqtisadi inkişafın təmin edilməsi ölkənin ixrac potensialının artırılmasından birbaşa asılıdır. İxrac, ölkələrin üzləşdikləri iqtisadi problemlərin həll olunması, xalqların rifah səviyyəsinin yüksəldilməsi və dünya miqyasında dövlətlərin təmsil olunması baxımından mühüm əhəmiyyət kəsb etməkdədir. Eyni zamanda ixrac iqtisadiyyatın böhrandan çıxarılmasının və bazar transformasiyasının mühüm stabilləşdirici faktoru kimi çıxış edir. İxrac ölkə iqtisadiyyatının maliyyə sabitliyinin təmin edilməsinin əsas amillərindən biri hesab edilir. Ölkənin ixrac potensialının artması istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsinə xidmət göstərir. Dünyada gedən qloballaşma prosesində iştirak etmək və dünya iqtisadiyyatına inteqrasiya olunmaq ticarət əlaqlərinin genişlənməsi zərurətini meydana gətirir. İnteqrasiya isə bir proses olaraq ayrı-ayrılıqda şirkətləri, bütölükdə isə dövləti daha sərt rəqabət mühitində fəaliyyət göstərməyə sövq edir. Bunlar beynəlxalq təcrübədən yararlanmaqla inkişaf tədbirlərinin müəyyənləşdirilməsini zəruri edir.

## Nəticə

1. İxracın stimullaşdırılması mexanizminin formalaşdırlmasında ölkənin iqtisadi inkişaf səviyyəsinin, həmçinin daxili və xarici amillərin təsirinin nəzərə alınması şərtilə ixrac yönümlü məhsul istehsalçıları arasında sağlam rəqabət mühitinin yaradılması.
2. İxracın stimullaşdırılmasının başlıca iqtisadi mexanizmlərindən olan maliyyə dəstəyi tədbirlərinin, o cümlədən subsidiyaların, güzəştli kreditlərin, investisiya təminatının tətbiqi və genişləndirilməsi.

3. Kənd təsərrüfatı məhsulları istehsalçıların xarici bazarlarda mövqeyinin möhkəmləndirilməsinə xidmət edən innovasiya tətbiqinin sürətləndirilməsi hesabına rəqabət qabiliyyətli məhsul istehsalına nail olunması.

4. Ölkənin kənd təsərrüfatı məhsullarına tələbatının yerli istehsal hesabına ödənilməsi səviyyəsi nəzərə alınmaqla idxalın ixracla əvəzlənməsinə xidmət edən ixracın şaxələndirilməsinin təmin edilməsi və ixrac coğrafiyasının genişləndirilməsi.

5. Dünya təcrübəsində ixracın kreditləşdirilməsində və ixrac gəlirlərinin sığortalanması məqsədilə istifadə olunan ixtisaslaşmış ixrac bankının -eximbank yaradılması.

6. Aqrar sahədə ixrac meylli iri təsərrüfatçılıq formalarının yaradılması istiqamətində dövlət dəstəyinin genişləndirilməsi – beynəlxalq sertifikatların alınması, ixrac missiyalarında və beynəlxalq sərgilərdə iştirakının təmin edilməsi, xarici bazarlara çıxışın asanlaşdırılması.

7. İxrac yönümlü istehsal sahələrinin zəruri dövriyyə kapitalı təmin edilməsi üçün banklara təklif etdiyi kredit mənbələri üçün zəmanət öhdəliklərinin verilməsi.

8. Daxili və xarici bazarların tələbləri nəzərə alınaraq qiymət və gömrük mexanizmlərindən istifadə etməklə tənzimləmə siyasətinin, o cümlədən idxal və ixrac məhsullarının həcminin tənzimlənməsi, xarici bazarların mənimsənilməsi əməliyyatların sığortalanması və ixrac infrastrukturunun dəstəklənməsi tədbirlərinin həyata keçirilməsi. İxracın təşviqi istiqamətində aşağıdakı tədbirlərin həyata keçirilməsi:

- İxrac yönümlü məhsul istehsalının təşviqində əsas məsələlərdən hesab edilən istehsalçıların müdafiəsini təmin etmək məqədilə dövlət zəmanəti və öhdəlikləri mexanizminin hazırlanması.
- təşviqi həyata keçirən dövlət qurumları tərəfindən maarifləndirmə tədbirlərinin davamlı və daha geniş formada aparılması (bu istiqamətdə sfarişli layihələrin verilməsi);
- təşviq olunan aqrar sahə məhsullarının siyahısının genişləndirilməsi və ixracla bağlı sənədləşdirmələrin sadələşdirilməsi.

- bazar araşdırmalarının təkcə sahibarlardan gələcək sfarişlər əsasında deyil, eyni zamanda AZPROMO-nun özünün sfarişçi kimi çıxış etməsi əsasında aparılması.

**Dissertasiya işinin əsas müddəaları aşağıdakı elmi məqalələrdə öz əksini tapmışdır:**

1. Aqrar sahənin ixrac potensialının reallaşdırılması məsələləri / “Aqrar iqtisadiyyat və innovasiyalı inkişaf” mövzusunda ümum respublika elmi-praktik konfransın materialları. Gəncə 2012. S.107-109

2. Aqrar sahə məhsullarının ixracının bəzi məsələləri // Journal of Qafqaz University- Economics and Administration an international Journal. Number 34. 2012. №34- S.97-100

3. Kənd təsərrüfatı məhsulları ixracının stimullaşdırılması istiqamətləri / I İnternational Scientific conference of Young Researchers Qafqaz University.Bakı 2013 S.40-41

4. Xarici ticarət nəzəriyyələrində kənd təsərrüfatı məhsullarının ixracı məsələləri // Kooperasiya Elmi nəzəri jurnal. Bakı 2013 №1(28) S. 115-118

5. Rəqabət qabiliyyətinin artırılmaşının ixraca təsiri // AMEA İqtisadiyyat İnistitutu. Elmi Əsərlər. Bakı 2014 №2 S.170-174

6. Aqrar ixrac potensialından istifadənin səmərəliliyinin qiymətləndirilməsi // Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitututunun Elmi Əsərləri. Bakı S. 92-96 2015

7. Kənd təsərrüfatında ixracın təşviqinin Türkiyə təcrübəsi // AMEA-nın Xəbərləri İqtisadiyyat seriyası Bakı 2015 №1- S.102-106

8. Devalvasiya prosesinin aqrar sahədə resurslardan istifadəyə və ixraca təsiri // Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzi. Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun Elmi əsərləri Bakı 2017№1 S. 112-117

9. Место Российской Федерации во внешнеторговых связях Азербайджанской Республики // Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzi Kənd Təsərrüfinın İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun Elmi əsərləri Bakı 2018 №2 S. 169-173

10. Aqrar sahədə ixracın iqtisadi mexanizminin formalaşdırılması //ADAU-nun Elmi Əsərləri. Gəncə 2018 №2 S. 124-128

11. İxracın stimullaşdırılması və təşviqində beynəlxalq təsrübədən istifadə// Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzi Kənd Təsərrüfinın İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun Elmi əsərləri Bakı 2018 №2 S. 169-173

12. Направления совершенствования экономического механизма экспорта / Актуальные научные исследования в современном мире Журнал Переяслав- Хмельницкий 2019 Выпуск 10(54) Часть 4 S. 172-175

13. Aqrar sahədə istehsalın mövcud səviyyəsinin təhlili / Gəncə Dövlət Universiteti Beynəlxalq Elmi-Konfrans. Müasir Təbiət və iqtisad elmlərinin aktual problemləri Gəncə 2019 5 hissə S. 167-169

14. Xarici ticarət əlaqələrinin inkişafında idxalın əvəzlənməsi strategiyası // ADAU-nun Elmi Əsərləri Gəncə 2019 №4 S. 129-131

15. Роль инноваций в стимулировании экспортоориентированного производства // Вопросы инновационной экономики Россия, Москва 2020 Том10 №1 S. 111-122

Dissertasiyanın müdafiəsi “29” dekabr 2021-ci il tarixində saat 14:00-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Atatürk prospekti 450, AZ 2000, Gəncə şəhəri, Azərbaycan

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Aqrar Universitetinin rəsmi internet saytında (www.adau.edu.az ) yerləşdirilmişdir.

Avtoreferat 29 noyabr 2021-ci ildə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: “22” _11_ 2021
Kağızın formatı: 60x84
Həcm: 42013 işarə
Tiraj: 100 ədəd